

Bu kitab - albom xalqımızın milli lideri

möhtərəm

HEYDƏR ƏLİYEVİN

Azərbaycan Respublikasına rəhbərliyinin

30 illiyinə həsr olunur



NAXÇIVAN MUXTAR RESPUBLİKASI

1969 - 1999



Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi bəlkə də bir o qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm. Bundan sonrakı ömrümü də onun işıqlı sabahları uğrunda qurban verməyə hazıram

HEYDƏR ƏLİYEV,

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ



YÜZ İLLİK İNKİŞAFIN ZİRVƏSİ-
1969-1999-cu İLLƏR

Naxçıvanda əsas quruculuq işi, sənayenin,
kənd təsərrüfatının inkişafı -bunların hamısı
1970-ci illərdən başlayaraq gedibdir.

HEYDƏR ƏLİYEV

İnsan var, doğulduğu torpağa görə tanınır, insan da var ki, doğulduğu torpağı bütün dünyaya tanıdır...

1969-cu ildə möhtərəm Heydər Əliyevin siyasi hakimiyyə ilk gəlişi ilə Azərbaycan özünün həqiqi inkişafını tapdı. Ona qədər doğma yurdumuz ağır günlər yaşayırdı. Əhalinin güzəranı getdikcə pisləşirdi. Bütün iqtisadi göstəricilərə görə Azərbaycan Sovetlər Birliyinin müttəfiq respublikaları içərisində ən axırıncı yerdə dururdu. 1969-cu ildə Sovetlər Birliyində milli məhsulun həcmi 1965-ci ilə nisbətən 43 faiz çoxaldığı halda, Azərbaycanda bu artım cəmisi 22 faiz olmuşdu. Bu göstərici çox böyük fərqlə bütün müttəfiq respublikalar içərisində ən aşağı həddi idi. Milli məhsulun adambaşına istehsal həcmi ölkənin ümumi səviyyəsi və başqa müttəfiq respublikalarla müqayisədə ilbəil azalırdı. Azərbaycanı idarə edənlər məqsədyönlü şəkildə aparılan regionu zəiflətmək siyasətinin qarşısını ala bilmirdilər.

...1969-cu ilin 14 iyulu tarixdə qalacaq. Çünki həmin gün sadəcə respublika rəhbərinin seçim günü yox- MİLLİ LİDERİN gəlişi günü idi. Məhz bu tarixdən e'tibarən keçmiş SSRİ-də ən geridə qalan əyalətlərdən hesab edilən Azərbaycan qabaqcıl respublikalardan birinə çevriləcəkdi...

1969-cu ilin ilk günlərindən respublikada sənaye, tikinti, kənd təsərrüfatı, təhsil və mədəniyyətin inkişafı sahəsində nəhəng işlər görüldü. Keçmiş Sovetlər Birliyi miqyasında və beynəlxalq aləmdə Azərbaycanın nüfuzunu qaldırmağa doğru qəti xətt götürüldü. Ən qısa müddətdə AZON zavodu, kondisioner və zərgərlik zavodları, neftayırma və kimya zavodları, hərbi-sənaye kompleksi müəssisələri tikildi. 250-dən artıq müəssisə işə düşdü. İnsan ayağı dəyməyən yerlərdə yeni yaşayış məskənləri inşa edildi. Bakının qoynunda ikinci Bakı salındı. Qətiyyətlə deyə bilərik ki, bu gün müstəqil dövlətimizin əsasını təşkil edən iqtisadi, siyasi, mədəni və mə'nəvi potensial məhz 1969-cu ildən başlayaraq yaradılmışdır.

Keçmiş Sovetlər Birliyi məkanında möhtərəm Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə doğma Vətənimiz ən yüksək inkişaf və çiçəklənmə dövrünə çatmış, beynəlxalq miqyasda o qədər də tanınmayan Azərbaycanın səsi dünyanın bütün guşələrindən gəlməyə başlamışdır. 1992-ci ildə Amerika Birləşmiş Ştatlarında nəşr olunmuş "Azərbaycan türkləri. Dövlət və fərd rus hakimiyyəti altında" kitabının müəllifi Odri Oldstadt möhtərəm Heydər Əliyevin o dövrdəki fəaliyyətinə yüksək qiymət verərək yazırdı ki, "bütün güclü şəxsiyyətlər kimi Heydər Əliyev də hamını öz arxasınca apara bilirdi. O, son dərəcə işgüzar və ziyalı rəhbər kimi zəifləmiş iqtisadiyyata yeni nəfəs gətirdi. Azərbaycanın nüfuzunu yüksəltməyə nail oldu... Heydər Əliyev Siyasi Büronun tərkibinə daxil olan ilk Azərbaycanlı lider idi. Bu, respublikanın siyasi gücünün çoxalması baxımından son dərəcə əhəmiyyətli amilə çevrildi."



Sovet imperiyasının ucqarlarda yeritdiyi siyasəti böyük uzaqgörənliklə milli mənafeyə tabe etdirən möhtərəm Heydər Əliyev Azərbaycanın dirçəlişinə və mədəni-mə'nəvi intibaha daim üstünlük vermiş, zamanı qabaqlayaraq ölkəmizin gələcək müstəqilliyi və suverenliyi üçün iqtisadi dayaqların yaradılması sahəsində gərgin iş aparmışdır. Bu dövrdə yaradılan infrastruktur, hazırda Azərbaycanın iqtisadiyyatının stabil inkişafı üçün əlverişli neft kontraktlarının imzalanması, iri kapital qoyuluşu layihələrinin reallaşdırılması sahəsində mühüm rol oynayır. Görkəmli siyasətçi və dövlət xadimi sovet rejiminin keçilməz sədlərini aşaraq tükənməz enerjisi ilə xalqa ləyaqətli xidmətin canlı salnaməsini yaratmışdır.

1969-cu ildən bu yana möhtərəm Heydər Əliyevin işgüzarlığı, qayğıkeşliyi nəticəsində Azərbaycanda iqtisadiyyatın inkişafında böyük uğurlar əldə edilib. Əsası da odur ki, inkişaf təkcə sənaye və tikinti potensialının cəmləşdiyi Bakıda yox, ölkəmizin hər yerində - Gəncədə, Sumqayıtda və digər şəhərlərdə də gedib, vahid Azərbaycan evimiz hər gün bir kərpic qalxaraq yenidən qurulub, böyüyüb və genişlənib.

Naxçıvan Muxtar Respublikasının inkişafının da son 30 illik dövrü möhtərəm Heydər Əliyevin şəxsiyyəti ilə sıx bağlı olmuşdur. Bu illərdə Azərbaycanın ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikası quruculuq və yüksəliş yolu keçmiş, 3500 illik tarixinin maddi və mədəni intibah dövrlərindən birini yaşamışdır.

1969-cu ildən sonra möhtərəm Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikasında gedən əzəmətli quruculuq prosesini şərti olaraq üç dövrə ayırmaq olar: 1969-1987-ci illər; 1990-1993-cü illər; möhtərəm Heydər Əliyevin ikinci dəfə ölkənin siyasi rəhbərliyinə qayıdışından-1993-cü il iyun ayının 15-dən sonrakı dövr.

1969-1987-ci illər. Mərkəzi imperiya rejimi Azərbaycanın muxtar vilayəti olan Dağlıq Qarabağın iqtisadi və sosial inkişafına üstün istiqamət verir, təbii sərvətlərlə zəngin olan Naxçıvan Muxtar Respublikasında məhsuldar qüvvələrin inkişafını bilərəkdən aşağı səviyyədə saxlayırdı. Daşnakların tarixi riyakarlığı və Sovet imperiyasının xeyir-duası ilə qədim torpağımız olan Zəngəzurun Ermənistana verilməsi nəticəsində Azərbaycandan təcrid edilmiş coğrafi məkanda yerləşən Naxçıvan Muxtar Respublikasını iqtisadi cəhətdən zəif inkişaf etmiş regiona çevirmək, bu yolla naxçıvanlıları ata-baba torpaqlarından didərgin salmaq siyasəti möhtərəm Heydər Əliyev Azərbaycana rəhbər seçiləndən sonra dayandırıldı. Məhz bu dövrdən Muxtar Respublika özünün ikinci ömrünü yaşamağa başladı.

1969-cu ildən sonra mürəkkəb və çətin tarixi şəraitdə həyata keçirilən tədbirlər nəticəsində Muxtar Respublikada sənaye və tikinti sahələrinin, aqrar-sənaye kompleksinin və onun istehsal infrastrukturunun yüksək inkişafı baş verdi. Sənayenin, e'mal və hasilat sahələrinin şəbəkəsi genişləndi. Sənaye istehsalının quruluşunda konserv, üzüm e'malı, tikinti materialları, elektrotexnika avadanlığı, meşə və ağac e'malının xüsusi çəkisi xeyli artdı. Qədim Naxçıvan diyarı mineral suları hesabına keçmiş Sovetlər Birliyi ölkələrində və beynəlxalq iqtisadi məkanda tanındı. Bütün bunların nəticəsidir ki, 1980-ci ilin sonuna yaxın məhsul istehsalı Muxtar Respublikanın təşkil edildiyi 1924-cü ilə nisbətən 180 dəfədən çox artmışdır. Təkcə 1987-ci ilin iki günündə 1913-cü ildə istehsal olunan qədər sənaye məhsulu istehsal edilirdi.

Naxçıvan şəhərində hər il 55 milyon ədəd butulka istehsal edən şüşə qablar zavodunun, alt trikotaj fabrikinin tikilib istifadəyə verilməsi nəticəsində minlərlə adam işlə tə'min olundu. Naxçıvanda tütün fermentasiya, alüminium qablar,



elektrotexnika, "Araz" təcrübə zavodları, taxıl məhsulları və ət-süd kombinatları, Ordubad və Şərur rayonlarında konserv zavodları, Şahbuz rayonunda avtotə'mir, Şərurda radio və Ordubadda elektron zavodları məhz bu illərdə tikilib istifadəyə verilmişdir.

1969-cu ildən sonra Naxçıvan Muxtar Respublikası böyük tikinti meydançasına çevrildi. Bu illərdə möhtərəm Heydər Əliyevin respublikanın rəhbəri kimi Naxçıvana səfərləri mühüm obyektlərin, yaşayış sahələrinin istifadəyə verilməsi ilə əlamətdar olub. Böyük tikinti proqramının sür'ətlə həyata keçirilməsi üçün Naxçıvan şəhərində dəmir-beton mə'mulatları zavodu, evtikmə kombinatı, üzlük plitələr zavodu, qum-çınqıl karxanası, Babək və Şərur rayonlarında tikinti materialları, Naxçıvanda asfalt zavodları istifadəyə verilmişdi. Bütün bunların nəticəsində Naxçıvan şəhərində 15 min nəfərə yaxın əhalinin məskunlaşdığı birinci, ikinci və üçüncü mikrorayonlar, 20 min nəfər əhalisi olan Yeni Naxçıvan yaşayış massivi, 10 min nəfər əhali yaşayan 57-ci və 141-ci məhəllə kimi yeni yaşayış sahələri tikilərək istifadəyə verildi. Ümumiyyətlə, hər il Naxçıvan şəhərində və rayon mərkəzlərində orta hesabla 35 min kvadratmetr mənzil sahəsi istifadəyə verilmişdir ki, bu da əhalinin mənzilə olan tələbatını xeyli yaxşılaşdırmışdır.

Bu dövrdə sosial obyektlərin tikintisinə də ciddi diqqət yetirilmişdir. Naxçıvan şəhərində 400 çarpayılıq respublika xəstəxanası, doğum evi, uşaq xəstəxanası, dəri-zöhrəvi, vərəm və onkoloji dispanserləri, şəhər poliklinikasının yeni binası, rayon mərkəzlərində və kəndlərdə çoxlu xəstəxana binaları, feldşer-mama məntəqələri tikilmişdir.

Milli me'marlığın son nailiyyətlərini özündə əks etdirən Respublika mədəniyyət sarayının, Naxçıvan uşaq-gənclər mədəniyyət sarayının, şahmat məktəbinin, rayonlarda yaraşıqlı klubların və mədəniyyət evlərinin, 53 min 246 şagird yeri olan 111 məktəb binasının, 3920 yerlik 38 uşaq bağçasının və 40-a yaxın məktəbdənkənar uşaq tərbiyə müəssisəsinin tikilib istifadəyə verilməsi xalqın mədəniyyətinə və təhsilinə qayğının ən parlaq təzahürüdür. Naxçıvan avtomobil məktəbi kompleksi, sovxoz-texnikum üçün yeni tədris binası da bu dövrün yadigarlarıdır.

Tikintinin ilbəil artan miqyası kommunal sahəni də əhatə etmişdi. Naxçıvan şəhərində, Culfa, Ordubad və Şahbuz rayonlarında mehmanxana binaları tikilmiş, Şərurdan Naxçıvana 58 kilometr uzunluğunda qrup su kəməri çəkilmişdi. 18 kilometr uzunluğunda trolleybus xəttinin çəkilməsi və trolleybus parkının tikilməsi əhaliyə göstərilən nəqliyyat xidmətinin səviyyəsini xeyli yaxşılaşdırmışdır.

Naxçıvanın müasir me'marlıq mədəniyyətində özünəməxsus yeri olan Siyasi maarif evi (indiki Naxçıvan şəhər icra hakimiyyətinin binası), Həmkarlar ittifaqları Şurasının, Ali məhkəmənin, respublika prokurorluğunun binaları da 70-ci illərdə tikilmişdir.Möhtərəm Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində Şuşa-Laçın-Biçənək-Naxçıvan qaz kəmərinin çəkilməsi o dövrün inanılmaz gerçəkliklərindən biri idi.

Azərbaycanda, ona bağlı Naxçıvan Muxtar Respublikasında aqrar bölmənin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi və sahənin sistemli şəkildə intensivləşdirilməsi istiqamətində əsaslı addımlar atılmışdır. Kimyalaşdırma, iri miqyaslı meliorasiya- irriqasiya tədbirləri həyata keçirilmiş, məhsul bolluğu tə'min olunmuşdur. Bu illərdə iri e'mal müəssisələri, taxıl və ət-süd kombinatları, üzüm e'malı zavodları, heyvandarlıq və südçülük kompleksləri, quşçuluq-broyler fabrikləri tikilib istifadəyə verildi. Göstərilən illər ərzində təsərrüfatlarda rentabellik səviyyəsi 8,3 faiz, fəhlə və qulluqçuların

əmək haqları 117 faiz çoxalmışdır. Bu dövrdə kənd yerlərində mənzil fondu 5,5 dəfə, klubların sayı 2,6 dəfə, məktəbəqədər uşaq müəssisələri 2,3 dəfə, kitabxanalar 2,7 dəfə, mənzillərin telefonlaşdırılması 1,7 dəfə artmışdı.

Kəndin sosial inkişafı adamların təhsil səviyyəsinin yüksəlişinə səbəb olmuşdu. Naxçıvan sovxoz-texnikumunda, Nehrəm, Yaycı, Şərur texniki-peşə məktəblərində hər il 400-dən artıq kənd təsərrüfatı mütəxəssisi hazırlanırdı.

Möhtərəm Heydər Əliyevin diqqət və qayğısı sayəsində bu tarixi mərhələdə Naxçıvanda elmin, təhsilin, mədəniyyətin, səhiyyənin və başqa sosial-mədəni sahələrin inkişafı da güclənmişdir. Azərbaycan Elmlər Akademiyası Naxçıvan Elm Mərkəzinin, Naxçıvan Dövlət Pedaqoji İnstitutunun, politexnik, kənd təsərrüfatı, musiqi və tibb texnikumlarının, Batabat astrofizika rəsədxanasının, Ordubad təcrübə-konstruktor bürosunun yaradılması və fəaliyyətə başlaması da məhz bu dövrün uğurlarıdır.

Bu illərdə Naxçıvan tarix muzeyinin, Cəlil Məmmədquluzadə adına ədəbiyyat muzeyinin, Məmməd Səid Ordubadinin, Hüseyn Cavidin, Yusif Məmmədəliyevin, Cəmşid Naxçıvanskinin ev muzeylərinin, rayon mərkəzlərində tarix-diyarşünaslıq muzeylərinin fəaliyyətə başlaması Muxtar Respublikanın mədəni həyatında mühüm rol oynadı.

Səhiyyə və təhsil sahəsində əsl intibah da bu dövrdə başlandı. Gənc kadrların seçilib o vaxtkı Sovetlər Birliyinin ən nüfuzlu ali təhsil ocaqlarına göndərilməsi, hərbi kadrların yetişdirilməsinə diqqətin artırılması millətin gələcək inkişafını, ölkənin siyasi müstəqilliyini tə'min edən mühüm strateji proqramın tərkib hissəsi idi.

Böyük, qüdrətli şəxsiyyətlərin tarix səhnəsinə gəlişi əzəmətli dəyişikliklərlə, sıçrayışlı yüksəlmələrlə əlamətdar olduğu kimi, onların hadisələrin qaynar mənbəyindən uzaq düşməsi də ağır fəlakətlər, sosial fırtınalar təhlükəsi yaradır. Yaşadığımız tarixin acı reallıqları bu həqiqəti bir daha açıb göstərdi.

Möhtərəm Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövrlə ikinci dövr arasındakı illər sözün əsl mə'nasında tariximizin ən dramatik, ağır tənəzzül illəridir. Heydər Əliyevin Sovetlər Birliyi rəhbərliyindən iste'fasından 15 gün sonra Moskva "Qarabağ oyunu"na başladı. M.S.Qorbaçovun xeyir-duası ilə Ermənistan Azərbaycana açıqdan-açığa ərazi iddiası irəli sürdü. Sovet-erməni birləşmələri torpaqlarımıza hərbi müdaxilə etdi. Azərbaycanı idarə edənlərin siyasi kəmsavadlığı, yersiz hakimiyyət iddiaları torpaqların bir-birinin ardınca işğalı ilə nəticələndi. Məhz belə bir şəraitdə Qarabağ müharibəsinin dalğası bu ərazidən çox-çox kənara çıxaraq Naxçıvanı da bürüdü. Kərki kəndi işğal olundu. Muxtar respublika çətin sınaqlar, ölüm-dirim dilemması qarşısında qaldı.

1990–1993–cü illər. Bu dövr Naxçıvan tarixinin ən gərgin, ən şanlı səhifəsidir. Naxçıvan Muxtar Respublikası mövcudluğu, bu günkü yaşayışı və nicatı üçün həmin illərdə möhtərəm Heydər Əliyevin siyasi tə'qib ucbatından burada yaşayıb-işləməsinə, siyasi fəaliyyət göstərməsinə borcludur. Tale möhtərəm Heydər Əliyevi Naxçıvana yetirməklə bu qədim torpağı işğal təhlükəsindən hifz etdi. Görkəmli dövlət xadiminin xalqın tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsini öz öhdəsinə götürməsi nəticəsində Naxçıvan erməni-daşnaq hiyləsindən xilas oldu. Onun muxtariyyət statusu qorunub saxlandı.

Möhtərəm Heydər Əliyev Naxçıvanda siyasi fəaliyyət göstərdiyi qısa zaman kəsiyində Azərbaycanın imperiya asılılığından tamamilə xilas olması, müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul etdi. Azərbaycanın müstəqil



dövlət kimi sonrakı fəaliyyətinin bir sıra konseptual istiqamətləri məhz bu dövrdə işlənib hazırlandı. İlk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı. Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağı dövlət bayrağı kimi qəbul olundu, 19-20 yanvar 1990-cı il faciəsinə siyasi qiymət verildi. Bundan əlavə, Naxçıvan əhalisinin SSRİ-nin qorunub-saxlanması barədə referendumda iştirakdan imtina etməsi, Muxtar Respublika ərazisində Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, 20 Yanvarın milli matəm günü, 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrə'ylik günü e'lan olunması, ilk demokratik islahatların keçirilməsi, Muxtar Respublikanın sərhədləri boyu atəşkəs rejiminin tətbiq olunması, dinclik, əmin-amanlıq yaradılması, aqrar sahədə, elmdə, təhsildə quruculuq işlərinin başlanması, milli ordu hissələrinin, ilk milli sərhəd dəstəsinin yaradılması, keçmiş Sovet Ordusunun Muxtar Respublika ərazisini tərk edərkən buradaki hərbi hissələrdə silah-sursatın və texnikanın Azərbaycanın digər bölgələrindən fərqli olaraq yüz faiz Naxçıvanda saxlanması bütövlükdə doğma Azərbaycanımız üçün taleyüklü məsələlər idi.

Bu dövrdə Muxtar Respublikanın iqtisadi problemlərinin həllinə də ciddi diqqət yetirilirdi. Muxtar Respublikanın düşdüyü iqtisadi çətinlikləri, blokadanın vurduğu ziyanı aradan qaldırmaq üçün qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaradıldı. Araz çayı üzərində Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgələrini birləşdirən onbir aşırımlı "Ümid" körpüsü tikilib istifadəyə verildi. Sədərək, Culfa və Şahtaxtı keçid məntəqələri fəaliyyətə başladı. Naxçıvan şəhəri yaxınlığında istilik-elektrik stansiyası tikildi, İran İslam Respublikasından Naxçıvan Muxtar Respublikasının Culfa rayonuna, Türkiyənin İqdır vilayətindən isə Naxçıvana 92 kilometrlik yüksək gərginlikli elektrik xətləri çəkildi. Əlamətdar haldır ki, ilk dəfə aqrar islahatlara və özəlləşdirmə tədbirlərinə də Naxçıvandan başlandı. O zaman Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən qəbul olunan "Zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların mal-qarasının özəlləşdirilməsi haqqında" qərarlar mülkiyyət münasibətlərinin dəyişilməsi və bazar iqtisadiyyatına keçidlə əlaqədar ən zəruri hüquqi baza yaradan tarixi sənədlərdir.

Böyük ömrün Naxçıvanda keçən üç ili ərzində görülən işlər müstəqil dövlətimizin daha da möhkəmlənməsinə yönəldilmiş milli inkişaf konsepsiyasının tərkib hissələri idi.

1988-1993-cü illərdə məhrumiyyət və müsibətlərdən keçərək dövlət müstəqilliyini itirmək qorxusu və vətəndaş müharibəsi təhlükəsi qarşısında qalan xalqımız üzünü Naxçıvana- möhtərəm Heydər Əliyevə tutdu. Bu, tarixdə şəxsiyyətin rolunun XX yüzilliyin sonunda daha bir təsdiqi idi.

...1993-cü ilin 15 iyun günü. Bu gün doğma Azərbaycan evimizin xilası, Azərbaycanın Azərbaycana qayıdışı günü idi. Xalqımızın milli qurtuluşu, vətəndaş qarşıdurmasından xilas olduğu gün idi. Bundan sonrakı tarix möhtərəm Heydər Əliyev siyasətinin strateji kursunun ana xəttini, başlıca məramını təşkil edən müstəqillik yollarından keçir.

Şərti olaraq **üçüncü dövr adlandırdığımız bu tarixi mərhələ** möhtərəm Prezidentimizin rəhbərliyi altında ölkəmizin bütün regionlarının tarazlı və bərabər inkişafı ilə xarakterizə olunur.

Bu dövrdə ölkənin siyasi mühitinə birbaşa tə'sir göstərən sabitləşmə tədbirləri nəticəsində 1995-ci ilin 12 noyabrında Azərbaycan və Naxçıvan Muxtar Respublika parlamentlərinə ilk demokratik seçkilər keçirildi, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olundu. Xalqımız tərəfindən haqlı olaraq Heydər Əliyev Konstitusiyası adlandırılan bu tarixi sənədlə



Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində muxtar dövlət statusu verildi.

Möhtərəm Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da quruculuq və bərpa işləri genişləndi. Bu dövrlərdə Muxtar Respublikada 20 məktəb binası, uzunluğu 906 paqonometr olan 31 körpü tikilərək istifadəyə verilmişdir. Yusif Məmmədəliyevin, M.S.Ordubadinin və Cəmşid Naxçıvanskinin ev muzeylərinin, Zərifə xanım Əliyeva adına Naxçıvan şəhər poliklinikasının, Naxçıvan dövlət dram teatrının, Respublika mədəniyyət sarayının, tarixi Əshabül-Kəhf ziyarətgahının və İmamzadə kompleksinin, Xalça muzeyinin binasının əsaslı şəkildə bərpa olunaraq yenidən istifadəyə verilməsi, Hüseyn Cavidin monumental abidəsinin tikintisi, C.Naxçıvanski adına hərbi litseyin Naxçıvan filialının fəaliyyətə başlaması və onun üçün müasir tələblərə cavab verən tədris korpusunun tikilməsi 70-ci illərdən başlanan quruculuq tədbirlərinin məntiqi davamıdır. Muxtar Respublikanın telekommunikasiya sistemində aparılan yenidənqurma işlərinin nəticəsində 35 mindən yuxarı elektron tipli xətt və nömrə istifadəyə verilmişdir.

Aparılan tədbirlərin və görülən yenidənqurma işlərinin nəticəsində Muxtar Respublikada əhalinin sosial vəziyyəti yaxşılaşmışdır. Son dövrlərdə 49 min kvadratmetrə yaxın yaşayış sahəsi tikilmişdir. Hər dörd ailədən birinin şəxsi minik maşını vardır.

Quruculuq işlərinin bir istiqaməti də möhtərəm Heydər Əliyev erməni lobbisinin tə'siri ilə siyasi hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra yarımçıq qalmış obyektlərdə işin davam etdirilməsindən ibarətdir. Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da belə obyektlər az deyildi. Bu obyektlərdən Babək rayonundakı Cəhri və Nehrəm, Şərur rayonundakı Sərxanlı kənd məktəblərinin və Ordubad rayonundakı Əylis kənd mədəniyyət evinin tikintisi tamamlanmış, Naxçıvan hava limanı tikilərək yenidən qurulmuş, Arpaçay üzərində körpülər salınmışdır. Naxçıvançay üzərində Vayxır su qovşağında və Naxçıvan Dövlət Universiteti üçün yeni tədris korpusunun tikintisində tamamlama işləri başa çatdırılmışdır.

Azərbaycanın ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikası özünün 75 illik yubileyinə hazırlaşır. Əlamətdar bayramın qeyd edilməsi barədə möhtərəm Prezidentimizin fərmanı uzun illər bundan sonra da Muxtar Respublikanın tarixi və siyasi taleyində mühüm əhəmiyyət kəsb edəcəkdir.

...XX əsr başa çatır. Tarix yeni eraya qədəm qoyur. 1969-cu ildən bu yana Azərbaycanda həyata keçirilən nəhəng quruculuq tədbirləri öz miqyasına görə bizim yüzilliyin sərhədlərini aşaraq üzümüzə gələn minillikdə də ölkəmizin sabit siyasi və iqtisadi inkişaf proqramına çevriləcək, Azərbaycanımızın müstəqil bir dövlətin timsalında daim yaşayacaqdır.

VASİF TALIBOV,
NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN SƏDRİ

















NAXÇIVAN' 1969 - 1987



























Naxçıvan Ədəbiyyat muzeyi
(1969-cu il).



Şöhrəti dillərdə gəzən Ordubad meyvəsinin e'malı üçün nəzərdə tutulmuş Konserv zavodu 1969-cu ilin axırlarında istifadəyə verilib. Zavodun layihə gücü ildə 28,7 milyon ədəd şərti bankadır.



Şərur rayon
musiqi məktəbi
(1970-ci il)



Naxçıvan Tütün-ferientasiya zavodu (1970) Naxçıvanda tikilən ən böyük e'mal müəssisələrindən biridir. İldə 4600 ton fermentləşmiş tütün istehsal etmək gücünə malikdir.



Araz Su Elektrik Stansiyası. 1 milyon 350 min kub metr su tutumu olan Araz dəryaçası üzərində 1971-ci ildə tikilən bu su elektrik stansiyası 22 meqavatt enerji istehsal edir.





Yusif Məmmədəliyevin ev muzeyi 1975-ci ildə Ordubad şəhərində istifadəyə verilmişdir.



Məmməd Səid Ordubadinin 1972-ci ildə istiyadəyə verilmiş ev müzeyi (Ordubad şəhəri).

Naxçıvan şəhər Azadlıq küçəsindən bir görünüş

70-ci illərdə Muxtar Respublika sənaye kompleksinin inkişafı sahəsində ilk əhəmiyyətli addım daxili bazarın tələbatını ödəmək qabiliyyətində olan Alüminium qablar zavodunun istifadəyə verilməsi ilə atıldı. 1972-ci ildə tikilən bu zavodun istehsal gücü ildə 1000 tondur.

Naxçıvan pivə zavodu.1974 -cü ildə istifadəyə verilən bu zavod hər il 10 milyon butulka pivə və limonad istehsal etmək gücünə malikdir.



Böyük dramaturq Cəlil Məmmədquluzadənin heykəli (1974-cü il).



1972-ci ildə Araz çayı üzərində tikilən ‘PANTON’ nasos stansiyası 5 min hektar sahəni suvarmağa imkan verir.



Naxçıvan elektrotexnika zavodu ən mühüm sənaye müəssisələrindən biridir. 1975-ci ildə tikilib istifadəyə verilmişdir.



1975-ci ilin yadigarlarından olan Babək rayon Tikinti materialları kombinatı ildə 8 milyon ədəd kərpic, 40 min kvadratmetr üzlük plitə istehsal edirdi...

70-ci illərin daha bir yadigarı- Naxçıvan Taxıl məhsulları kombinatı (1975). Layihə gücü 163 min tondur.





1978-ci ildə tikilən Naxçıvan qum-çınqıl karxanası ildə 50 min kub metr inert materialı istehsalı üçün nəzərdə tutulmuşdur.



1978-ci ildə Muxtar Respublikanın dağlıq rayonlarından birində-Ordubadda tikilib-istifadəyə verilən "Elektron" zavodu.



Naxçıvan Şüşə qablar zavodu (1979-cu il) Muxtar Respublikanın sənaye nəhənglərindən biridir. İldə 58 milyon ədəd butulka istehsal etmək gücünə malikdir.





1979-cu ildə Şərur rayonunda tikilən və tutumu 150 milyon kub metr olan Arpaçay dəryaçasının hesabına 20 min hektar sahə suvarılır.































































































Naxçıvan MSSR-in 50 illiyi münasibəti ilə keçirilən təntənəli iclasda möhtərəm Heydər Əliyev çıxış edir.(Naxçıvan şəhəri,4 oktyabr 1974-cü il).





Möhtərəm Heydər Əliyevin qərarı ilə 1978-ci ildə təşkil olunan Naxçıvan Muxtar Respublikasının Babək rayonu.





Sirab su anbarı Babək rayonunda 4 min hektar sahəni əkinə yararlı hala gətirməyə imkan vermişdir.1979-cu ildə tikilən anbarın tutumu 12 milyon kub metrdir.



Naxçıvan şəhər icra hakimiyyətinin binası (1980-ci il).

Muxtar Respublikanın dağ kəndlərinin möhkəmləndirilməsi həmişə diqqət mərkəzində olmuşdur. 1981-ci ildə Şahbuz rayonunun Nurs kəndində tikilib istifadəyə verilən 320 yerlik orta məktəb binası.



1982-ci ildə istifadəyə verilən Şərur radio zavodu.

1982-ci ildə tikilən Babək rayon Daş e'malı zavodu. (İstehsal gücü- ildə 100 min kvadratmetr üzlük plitə).

“Araz” təcrübə zavodu 1982-ci ildə istifadəyə verilib. Burada daxili bazarın tələbatına uyğun xalq istehlakı malları istehsal olunur.



Azərbaycan Milli Aerokosmik Agentliyi Ekologiya İnstitutunun Naxçıvan filialı. 1982-ci ildə tikilib istifadəyə verilmiş bu müəssisə aerokosmik metod və vasitələrlə Muxtar Respublikanın təbii sərvətlərini və iqtisadi potensialını tədqiq edir.

Naxçıvan Alt Trikotaj paltarları fabriki Muxtar Respublikanın ən böyük sənaye müəssisələrindən biridir. İstehsal gücü 9 milyon ədəd trikotaj mə'mulatı olan fabrik 1982-ci ildə tikilib istifadəyə verilmişdir.





1983-cü ildə istifadəyə verilən və illik gücü 50 min kvadratmetr/mənzil olan Naxçıvan Evtikmə kombinatının hesabına qədim Naxçıvanın sinəsində yeni-yeni yaşayış sahələri, məhəllələr salındı, doğma şəhərimiz ən müasir görkəm aldı.



Növbədə 25 min ton süd məhsulu istehsalı üçün nəzərdə tutulmuş Naxçıvan Ət-süd kombinatının süd e'malı sexi 1983-cü ildə tikilib istifadəyə verilmişdir.

Naxçıvan asfalt zavodu (1983) saatda 100 ton asfalt istehsal etmək gücünə malikdir.





Naxçıvan balıq zavodu 1984-cü ildə istifadəyə verilmişdir.
Layihəyə əsasən 70 ton balıq istehsal etmək gücünə malikdir.

İllik istehsal gücü 55 milyon şərti banka olan Şərur Konserv zavodu 1984-cü ildə tikilib istifadəyə verilmişdir.

1984-cü ildə istifadəyə verilən Şərur 3 nömrəli Sənaye kombinatı ildə 30 min kub metr beton mə'mulatı istehsal etmək gücünə malikdir.



“Təbriz” mehmanxanası. 112 yerlik bu bina 1984-cü ildə tikilib istifadəyə verilmişdir.



1984-cü ildə salınan qədim Naxçıvanın yeni yaşayış sahəsi- Yeni Naxçıvan massivi.



1986-cı ildə tikilib istifadəyə verilən
Naxçıvan şəhər 12 nömrəli orta məktəbi.



1987-ci ildə ucqar dağ kəndində tikilərək istifadəyə verilən Cağazir kənd orta məktəbi (Şərur rayonu).



Qədim xalq sənətini yaşadan Xalça kombinatı. Bu kombinatın birinci növbəsi 1985-ci ildə istifadəyə verilib. 4465 ton yun və yarım iplik istehsalı gücünə malikdir.



Naxçıvan 2 nömrəli Çörək zavodu 1985-ci ildə istifadəyə verilib. (İstehsal gücü sutkada 26 tondur.)




АЛИЕВ
ГЕЙДАР
АЛИЕВИЧ

Şərur-Naxçıvan qrup-su kəməri 1986-cı ildə çəkilib.
Kəmərin uzunluğu 58 kilometr, debeti 220 litr/saniyədir.



Naxçıvan şəhərində 18 kilometr uzunluğunda
trolleybus xətti 1986-cı ildə istifadəyə verilmişdir.





Respublika Mədəniyyət Sarayı qədim Naxçıvanın xalq sənətini müasir ifaçılıq mədəniyyəti ilə qovuşduran mərkəzlərdən biridir. 1100 yerlik saray 1986-cı ildə tikilib istifadəyə verilmişdir.



Bənəniyar su anbarı (Culfa rayonu) 1987-ci ildə tikilib.
Tutumu 16 milyon kub metrdir. Bənəniyar su anbarının hesabına
6 min hektar sahə əkin dövriyyəsinə daxil edilmişdir.



Naxçıvan şəhərində Cəmşid Naxçıvanskinin ev muzeyi (1987-ci il).



Tikiş fabrikinin ən böyük istehsal sahəsi olan üçüncü sex 1987-ci ildə istifadəyə verilib. (İstehsal gücü-ildə 2 milyon 400 min köynək)

Naxçıvan Respublika xəstəxanası 1987-ci ildə tikilib.420 çarpayılıqdır.



Naxçıvan şəhərində Koroğlunun heykəli (1987-ci il).



Mərdlik və mübarizlik simvoluna çevrilmiş Babəkin heykəli (Naxçıvan şəhəri, 1988-ci il).



Böyük ədib və filosof-şair Hüseyn Cavidin 1984-cü ildə Naxçıvan şəhərində istifadəyə verilmiş ev-muzeyi.



Darıdağ karbon zavodu (Culfa rayonu). 1988-ci ildə istifadəyə verilən bu zavod sutkada 25 ton karbon qazı istehsal edirdi.





Dahi me'mar Əcəmi Naxçıvaninin abidəsi (1989-cu il)









NAXÇIVAN' 1990 - 1993



Naxçıvan şəhərindəki "Qarabağ meydanı"
(1990-cı il)

Siyasi tə'qib ucbatından Moskvadan Naxçıvana gələn möhtərəm Heydər Əliyev 100 min nəfərdən artıq naxçıvanlı tərəfindən hərarətlə qarşılanmışdır
(Naxçıvan şəhəri, 22 iyul 1990-cı il)





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin binası.



Naxçıvan, 17 noyabr 1991-ci il.
















TCK
TRT
НАХЫВАН
ЈАШАЈЫР,
ДОЈУШУР...









Araz çayı üzərindəki‘ÜMİD’ körpüsü (uzunluğu 286 p/metr) Turkiyə ilə Azərbaycan arasındakı yeganə quru sərhəddində iki dost və qardaş ölkəni bir-birinə birləşdirir. Körpü 1992-ci il mayın 28-də möhtərəm Heydər Əliyev və Süleyman Dəmirəl cənablarının birgə iştirakı ilə açılmışdır.





1992-ci ilin axırlarında istifadəyə verilən Şahtaxtı-Poldəşt körpüsü ağır gündə xalqın bir-birinə uzanan yardım əlinin bariz nümunəsi-birlik, həmrə'ylik nişanəsidir.



1992-ci ildə İran İslam Respublikasından Naxçıvan Muxtar Respublikasının Culfa rayonuna çəkilmiş yüksək gərginlikli elektrik xətti.



1993-cü ildə qısa müddət ərzində Türkiyə Respublikasından Naxçıvana çəkilmiş 92 kilometrlik yüksək gərginlikli elektrik xətti.

Yollar uzaq- mənzil yaxın...Naxçıvan- İstanbul avtobus marşrutu 1992-ci ildən fəaliyyət göstərir.





1992-ci ildə istifadəyə verilən Naxçıvan istilik-elektirik stansiyası.



1993-cü ildə yenidən qurularaq ağır yüklü təyyarələrin enib-qalxmasına imkan yaradan Naxçıvan hava limanı.





Azərbaycanda ilk milli sərhəd dəstəsi möhtərəm Heydər Əliyevin rəhbərliyi ilə
1992-ci ildə Naxçıvanda yaradılmışdır.





Vətən torpağının keşiyində ayıq-sayıq
dayanan əsgərlər tə'lim zamanı.



Sədərək orta məktəbindəki muzey.



Tarixlərin şahidi, o taylı-bu taylı Azərbaycanın Culfa körpüsü.



Muxtar Respublikanın aqrar sektorunda şəkər çuğunduru istehsalı ən perspektivli sahədir. Muxtar Respublikada şəkər çuğunduru yetişdirilməsinə 1993-cü ildən başlanmışdır. Bu sahədə ilbəil dinamik artıma nail olunur. Təkcə 1998-ci ildə 39,3 min ton (1997-ci illə müqayisədə 168,4% artıq) şəkər çuğunduru istehsal edilmişdir.


KASI

NAXÇIVAN' 1993 - 1999
















NATIONAL PRE





1996-cı ildə Şərur rayonunun Aralıq kəndində tikilib istifadəyə verilən bu məscid möhtərəm Prezidentimizin şərəfinə "Heydər məscidi" adlandırılmışdır.



Qədim Naxçıvanın əyilməzlik, mübarizlik simvolu, alınmaz qalası- Əlincə...

"Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi uğrunda şəhid olanlar əbədiyyətə qovuşublar. Onların qəhrəmanlıq xatirəsi bizim qəlbimizdə daim yaşayacaq. Burada, şəhidlər xiyabanında Azərbaycanın ayrılmaz hissəsi Naxçıvanın müdafiəsində həlak olanlar əbədi uyuyurlar. Allah rəhmət eləsin. Onlar daim bizim qəlbimizdədirlər.

Azərbaycan Respublikasının Prezidenti
Heydər Əliyev
29 oktyabr 1996-cı il"





Naxçıvan taxılçılığın ən qədim məskənidir.

Mö'münə Xatun məqbərəsi (XII əsr) və muzeyi.





Oğuz türklərinin tarixi izini yaşadan qoç heykəlləri.


Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir.
Heydər Əliyev.




AZƏRBAYCA
Tu-154m


NAXÇIVAN
GƏLMİSİNİZ








HOŞ GELMİŞİNİZ
















1882 - 1941



Böyük Azərbaycan şairi Hüseyn Cavidin Naxçıvan şəhərindəki məqbərəsinin daş‘pasportu’: “1937-ci il siyasi repressiyasının qurbanı dahi Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin cənazəsi 1982-ci ildə Heydər Əliyevin böyük sə’yləri nəticəsində Sibirdən Azərbaycana gətirilərək burada -doğulduğu Naxçıvan torpağında dəfn olunmuşdur.Məqbərə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü və himayəsi ilə 1996-cı ildə tikilmişdir’.

29.X.1996-cı il. Naxçıvan şəhəri”








STAR
STAR

Dünyanın ən qədim runik yazılarını, insanların kosmoqonik təsəvvürlərini özündə əks etdirən Gəmiqaya təsvirlərinin saxlanca döndərdiyi "Şərur" yallısı xalqımızın ruhunu bu gün də yaşadır...















Şərur şəhərində Heydər Əliyevin pannosu və "Heydər bulağı".

Elin zəhməti- torpağın bərəkəti.



1996-cı ildə Babək rayonunda istifadəyə verilmiş 604 yerlik Cəhri kənd 3 nömrəli orta məktəbinin binası.

1997-ci ildə istifadəyə verilən Naxçıvan Muxtar Respublikası Şəhidlər muzeyi.



1997-ci ildə Ordubad rayonunun Əylis kəndində istifadəyə verilən mədəniyyət evinin binası.



XVII əsrin yadigarı olan İmamzadə məscid və məqbərə kompleksi. Bu tarixi abidə 1997-ci ildə əsaslı şəkildə yenidən bərpa olunub. Kompleksin ətrafı, o cümlədən böyük maarifpərvər M.T.Sidqinin və fırça ustası Bəhruz Kəngərlinin qəbirləri də abadlaşdırılmışdır.







Qədim ipək yolu üzərində tikilən, 1997-ci ildə əsaslı şəkildə tə'mir və bərpa olunan Aza körpüsü. 1969-1999-cu illərdə Naxçıvan Muxtar Respublikasının avtomobil yolları üzərində 89 körpü (3036 paqono/metr) tikilərək istifadəyə verilmişdir.



Qədim Zəngəzurun 1918-ci ildə Ermənistana verilməsi nəticəsində Naxçıvan Muxtar Respublikasının ərazisi Azərbaycandan ayrı düşmüşdür.





Naxçıvanın Ermənistan tərəfindən blokadasından 9 il keçir.



Bu yol Təbrizə gedir. Təbriz-Naxçıvan qatarı bir azdan yola düşəcək...

1997-ci ildə Naxçıvan şəhərində istifadəyə verilən Naxçıvan- türk litseyinin yeni tədris korpusu.



ÖZEL
NAHÇIVAN LİSESİ

Türk Litseylərinə qəbul imtihanı
üçün qeydiyyat başlamışdır
Qəbul imtihanı 02. May.1999 tarixində
Saat 10:00 da keçiriləcəktir.



Su aydınlıqdır. Naxçıvan şəhərində “Heydər bulağı”.



Şahmat məktəbi 1997-ci ildə Naxçıvan şəhərində müasir me'marlıq üslubunda tikilən yeni tədris müəssisələrindən biridir.

Naxçıvan şəhərində XVIII əsrə aid olan tarixi abidə (1998-ci ildə bərpa edilmişdir).

1998-ci ildə istifadəyə verilmiş Naxçıvan xalça muzeyinin binası (XVIII əsrə aid tarixi abidə).



Müasir xalçaçılıq sənətinin şah əsərlərindən biri olan
"Heydər Əliyev xalçası"
(1998-ci il. Müəllifi professor Kamil Əliyevdir).

Heydər Əliyev adına Uşaq və Gənclər istirahət parkı 1998-ci ildə istifadəyə verilib. Asudə vaxtın mə'nalı keçirildiyi ən səfalı və abad guşələrdən biridir.

“Naxçıvan” özəl universiteti (1998-ci il)



Yeni Naxçıvan yaşayış massivində 1998-ci ildə istifadəyə verilən 620 yerlik 14 nömrəli orta məktəb binası.



1996-1999-cu illər ərzində Naxçıvan Muxtar Respublikasında tikilmiş və əsaslı bərpa olunmuş körpülər

Şərur rayonu

Arpaçay üzərində 120 p/metrlik körpü (1996-cı il).
Arpaçay üzərində 96 p/metrlik Dizə körpüsü (1997-ci il).
Axura çayı üzərində 30 p/metrlik körpü (1998-ci il).
Arpaçay üzərində 8 p/metrlik Şəhriyar körpüsü (1998-ci il).

Babək rayonu

Quru selovda 30 p/metrlik Sirab körpüsü (1996-cı il).
Cəhri çayı üzərində 30 p/metrlik Nəzərabad körpüsü (1997-ci il).
Qahab selovunda 15 p/metrlik Kərimbəyli körpüsü (1997-ci il).
Naxçıvançay üzərində 86 p/metrlik Vayxır körpüsü (1997-ci il).
Qaraqalada 26 p/metrlik Yeniyol körpüsü (1997-ci il).
Pircüvar selovu üzərində 15 p/metrlik Əshabül-Kəhf körpüsü (1998-ci il).
Çalxanqala selovu üzərində 30 p/metrlik Duzdağ körpüsü (1998-ci il).
Qahab selovu üzərində 15 p/metrlik Zeynəddin körpüsü (1999-cu il).

Culfa rayonu

Əlincəçay üzərində 45 p/metrlik Cəmaləddin körpüsü (1997-ci il).
Əlincəçay üzərində 30 p/metrlik Xanağa körpüsü (1997-ci il).
Əlincəçay üzərində 30 p/metrlik Ərəfsə körpüsü (1997-ci il).
Xoşkəri selovu üzərində 45 p/metrlik körpü (1998-ci il).
Araz çayı üzərində 125 p/metrlik Culfa körpüsü (1998-ci il).
Əlincəçay üzərində 20 p/metrlik Saltaq körpüsü (1998-ci il).

Ordubad rayonu

Düylünçay üzərində 10 p/metrlik Çənnəb körpüsü (1996-cı il).
Düylünçay üzərində 10 p/metrlik Üstüpir körpüsü (1996-cı il).
Düylünçay üzərində 5 p/metrlik Məzrə körpüsü (1996-cı il).
Gilançay üzərində 10 p/metrlik Bührüd körpüsü (1996-cı il).
Gilançay üzərində 46 p/metrlik tarixi Aza körpüsü (1997-ci il).
Dübəndiçay üzərində 10 p/metrlik Nüs-nüs körpüsü (1998-ci il).
Vənəndçay üzərində 30 p/metrlik Kələki körpüsü (1998-ci il).

Şahbuz rayonu

Kükü çayı üzərində 20 p/metrlik körpü (1996-cı il).
Nurs çayı üzərində 15 p/metrlik körpü (1996-cı il).
Nurs çayı üzərində 5 p/metrlik Mahmudoba körpüsü (1997-ci il).
Remeşin çayı üzərində 10 p/metrlik körpü (1998-ci il).







1998-ci ildə Culfa rayonunda istifadəyə verilən Xoşkəri və Camaldın körpüləri.

1998-ci ildə Şərur şəhərində istifadəyə verilən "Heydər parkı" rayonun ən abad guşələrindən biridir.

Babək rayon mərkəzində möhtərəm Heydər Əliyevin 75 illiyi şərəfinə ucaldılmış panno.

Nehrəm kənd şəhidlər xiyabanı.







1993-cü ildə ağır blokada şəraitində 4,3 kilometr məsafədən çəkilən içməli su kəməri Nehrəmə yeni nəfəs, həyat gətirib...

620 şagird yeri olan Nehrəm kənd məktəbi (1998-ci il) təhsilə göstərilən böyük qayğının daha bir təzahürüdür. 1969-1999-cu illərdə Naxçıvan Muxtar Respublikasında 53 min 246 şagird yeri olan 111 məktəb tikilib istifadəyə verilmişdir.







Böyük ədib, dramaturq Cəlil Məmmədquluzadənin 1998-ci ildə Naxçıvan şəhərində istifadəyə verilmiş ev muzeyi.

Naxçıvanın alınmaz qalası Sədərək.

1996-1999-cu illər ərzində Naxçıvan Muxtar Respublikasında tikilmiş məktəblər

Naxçıvan şəhərində 320 yerlik 13 nömrəli orta məktəb .....(1996-cı il).
Babək rayonunda 604 yerlik Cəhri kənd 3 nömrəli orta məktəbi .....(1996-cı il).
Şərur rayonunda 192 yerlik Diyadin kənd məktəbi .....(1996-cı il).
Sədərək rayonunda 120 yerlik Qarağac kənd məktəbi .....(1997-ci il).
Naxçıvan şəhərində 320 yerlik 14 nömrəli orta məktəb .....(1997-ci il).
Babək rayonunda 360 yerlik Güznüt kənd orta məktəbi .....(1997-ci il).
Culfa rayonunda 320 yerlik Kırna kənd orta məktəbi .....(1997-ci il).
Şahbuz rayonunda 120 yerlik Şada kənd orta məktəbi .....(1997-ci il).
Naxçıvan- türk litseyinin 120 yerlik yeni tədris korpusu .....(1997-ci il)
Naxçıvan şəhərində şahmat məktəbi .....(1997-ci il).
Şərur rayonunda 80 yerlik Yeni Kərki əsas məktəbi .....(1998-ci il).
Babək rayonunda 604 yerlik Nehrəm kənd orta məktəbi .....(1998-ci il)
Şərur rayonunda 320 yerlik Sərxanlı orta məktəbi .....(1998-ci il).
Şahbuz rayonunda 120 yerlik Tırkeş kənd məktəbi .....(1998-ci il).
C. Naxçıvanski adına hərbi məktəbin Naxçıvan filialı üçün
yeni tədris korpusu .....(1999-cu il).

Həmin müddət ərzində Naxçıvan Muxtar Respublikasının şəhər, qəsəbə və kəndlərində 6 məktəb binası əsaslı şəkildə tə'mir olunmuşdur.



Sədərək rayonunun Qarağac kəndində 1998-ci ildə istifadəyə verilən məktəb binası.



Erməni işğalçıları tərəfindən dağıdılan, saysız-hesabsız güllə "yarası" alan Heydərabad qəsəbəsi 1998-ci ildə yenidən bərpa olunaraq həyata qaytarılmışdır.



Sədərək rayon xəstəxanası ən müasir tibbi avadanlıqlarla tə'min edilmişdir. Xəstəxana 1998-ci ildə istifadəyə verilmişdir.



Sədərək şəhidləri yad edilir.



Şərur rayonundan bir görünüş.



Oğlanqala (e.ə.II-I min illik) abidəsi. Adı dillər əzbəri olan Naxçıvan mərmər ehtiyatları da məhz buradadır.



Qarabağlar türbə kompleksi (XII-XIV əsrlər).



Qaçqınlıq ömrü yaşayan, ata-baba yerlərindən didərgin düşən Kərki sakinləri (kənd 1990-cı il yanvar ayının 19-da rus və erməni qoşunları tərəfindən işğal olunmuşdur) burada isti ocaq tapıb, yurd-yuva salıblar. 1998-ci ildə Yeni Kərkidə məktəb binası və əhalinin içməli su ilə tə'minatını yaxşılaşdıran su qülləsi istifadəyə verilmişdir.



Dərə gədiklərindən keçən bu yol Şərur rayonunun ən ucqar dağ kəndinə- Cağazirə aparır.



Dağların göz yaşı- Arpaçay.



Axura-Həmzəli körpüsü (Şərur rayonu) 1998-ci ildə Axura çayı üzərində tikilərək istifadəyə verilmişdir.

Şərur rayonundakı Həmzəli su nasos stansiyası 1997-ci ildə istifadəyə verilmişdir.



1998-ci ildə əsaslı tə'mirdən sonra istifadəyə verilən Şərur rayon mərkəzi xəstəxanasının reanimasiya şö'bəsi və doğum mərkəzi.





Dünənin izi-bu günün gözü ilə...3500 ildən çox yaşı olan qədim Naxçıvan torpağının keçmişindən soraq verən Şərur rayon tarix-diyarşünaslıq muzeyi.



Şərur rayon Şəhidlər xiyabanı.

Dağlar gözəli Şahbuz yeni həyata qovuşur.



Badamlı zavodunda istehsalat prosesi.





200-dən artıq mineral su mənbəyi olan qədim Naxçıvan torpağı.





Şahbuz rayon şəhidlər xiyabanı.

Naxçıvanın məşhur duzdağı. Muxtar Respublikada duz hasilatının tarixi qədim dövrlərə gedib çıxır. Hesablamalara görə burada 90 milyon ton duz ehtiyatı vardır.









Akademik Zərifə xanım Əliyevanın adını daşıyan Naxçıvan şəhər poliklinikası (1998-ci il).

Culfa rayonunda yenidən abadlaşdırılan guşələrdən biri.



Culfa rayon şəhidlər xiyabanı.





Müqəddəs "Qurani-Kərim"də adı çəkilən "Əshabül-Kəhf" ziyarətgahı (e.ə. VII əsr) ölkə Prezidenti möhtərəm Heydər Əliyevin göstərişi və himayəsi ilə yenidən bərpa olunmuşdur.





Ordubad- qoruq şəhəridir.





Ordubad ipəyinin şöhrəti dillərdə gəzir...(Ordubad ipək kombinatı).

Nənələrimizin barmaqlarından ilmə-ilmə süzülüb gələn qədim xalq sənətinin-xalçaçılığın bugünü. Ordubad xalça fabriki.







Kələki körpüsü 1998-ci ildə tikilərək əhalinin istifadəsinə verilmişdir.





Hər daşın altında bir tarix yatır. Ordubad tarix-diyarşünaslıq muzeyi.



Ordubad şəhidlər xiyabanında sükut və xatirə dəqiqələri.



Muxtar Respublikanın telekommunikasiya sistemi yenidən qurulur.

C. Naxçıvanski adına hərbi məktəbin Naxçıvan filialı üçün 1999-cu ildə tikilən ən müasir tədris korpusu.



Vayxır su qovşağının birinci növbəsi 1999-cu ildə tikilərək başa çatdırılmışdır. Layihə gücü 100 milyon kub metr olan dəryaça 10 min hektar sahəni suvarmağa imkan verəcəkdir.

Naxçıvan Dövlət Universitetinin 1600 yerlik yeni tədris korpusu.



Naxçıvan Dövlət Universiteti nəzdində Konservatoriyanın binası 1999-cu ildə əsaslı şəkildə yenidən bərpa olunaraq istifadəyə verilmişdir.





‘Heydər məscidi’.
Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən möhtərəm Heydər Əliyevlə İran İslam Respublikasının ‘Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslame’ fondunun prezidenti Ağayi Möhsen Rəfiq Dust arasında 24 avqust 1992-ci il tarixdə Tehran şəhərində imzalanmış protokola əsasən Ayətulla Xameneyi həzrətlərinin və Zati-Aliləri Heydər Əliyevin himayəsi ilə tikilmişdir.



Naxçıvan şəhərində 1999-cu ildə ucaldılmış Dədə Qorqud abidəsi və "Dədə Qorqud" meydanı

1999-cu ildə Naxçıvan şəhərində istifadəyə verilmiş Heydər Əliyev muzeyi.







Naxçıvan Muxtar Respublikasının Ali Məclisi
tərəfindən nəşr olunur

Tərtib edəni-
ƏLİ HƏSƏNOV

Fotoqraf və çap proqramını işləyən-
Nazim BABAYEV

Kitab- albomda arxiv şəkillərindən istifadə olunmuşdur.

Yığılıb-səhifələnmişdir- 03 may 1999-cu il.
Çapa imzalanmışdır- 15 iyun 1999-cu il.
Həcmi- 13.5 çap vərəqi, formatı- 62x94 1/8
Kağız- təbaşirli, ə'la növ, çəkisi- 135 qr. kv. m. Bərk cilddə.
Ofset çap üsulu ilə. Sayı 1000 nüsxə
Kompüter tərtibatı, rəng ayrımı və çap-
Mega Basım A. Ş. İstanbul, Türkiyə Respublikası.
Sifarişlə.

N 5(3)
Naxçıvan Muxtar Respublikası'1969-1999 Naxçıvan, 216 səh.



Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti